*Səttar Bəhlulzadə*

**AZƏRBAYCANIN GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏRİ**



# SƏTTAR BƏHLULZADƏ

## *BİBLİOQRAFİYA*

**AZƏRBAYCAN RESPUBLİKASI
MƏDƏNİYYƏT və TURİZM NAZİRLİYİ**

---

**M.F.AXUNDOV adına AZƏRBAYCAN
MİLLİ KİTABXANASI**

***Azərbaycanın görkəmli şəxsiyyətləri***

# SƏTTAR BƏHLULZADƏ

## *BİBLİOQRAFİYA*

**BAKI - 2009**

*Layihənin rəhbəri:* ***Əbülfəs Qarayev,***
*Azərbaycan Respublikasının Mədəniyyət və Turizm naziri*

*Tərtib edənlər:* ***M.Cahangirova***
***P.Qurbanova***

*İixtisas redaktoru və buraxılışa məsul* ***K. Tahirov***

*Redaktor:* ***G. Səfərəliyeva***

**Səttar Bəhlulzadə: Biblioqrafiya** /tərt. ed: M.Cahangirova, P.Qurbanova; İxt. red. və burax. məsul: K.Tahirov; Red. G.Səfərəliyeva: M.F.Axundov ad. Azərbaycan Milli Kitabxana.- B., 2009.- 181 s. ("Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyası) Azərbaycan və rus dillərində

© M.F.Axundov adına Milli Kitabxana, 2009.

Hər bir sənətkar haqqında danışılarkən nədənsə ona hökmən istər özündən əvvəl yaşamış, istərsə də müasiri olduğu böyük sənətkarların təsirini qeyd edirlər: Doğrusunu deyim ki, əgər mənim barəmdə buna oxşar fikir söylənsə, onunla heç zaman razılaşa bilmərəm. Axı, sənətkar adlanan kəsin hər şeydən əvvəl öz yönü və öz dəsti-xətti olmalıdır.

**Səttar Bəhlulzadə,**
***Xalq rəssamı***

## YUNESKO-nun 2008-2009-cu illərdə görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin qeyd edilməsi proqramına Azərbaycanla bağlı daxil olmuş yubileylərin keçirilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

YUNESKO-nun görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin qeyd edilməsi proqramı çərçivəsində YUNESKO Baş Konfransının 34-cü sessiyası 2008-2009-cu illərdə "Leyli və Məcnun" operasının ilk tamaşasının, Xalq rəssamı Səttar Bəhlulzadənin, yazıçı Mir Cəlal Paşayevin və akademik Musa Əliyevin 100 illik yubileylərinin rəsmi qeyd olunması ilə bağlı qərar qəbul etmişdir.

Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" əsərinin 1908-ci ildə birinci tamaşası milli musiqi mədəniyyəti tarixində yeni dövr açmışdır. Muğamla Avropa operasının üzvi vəhdəti əsasında yaradılan "Leyli və Məcnun" Azərbaycan musiqisinin həqiqi ensiklopediyasıdır.

Müsəlman Şərqində opera janrının əsası da muğam operasının bu ilk nümunəsi ilə qoyulmuşdur.

Xalq rəssamı, Dövlət mükafatı laureatı Səttar Bəhlulzadənin adı Azərbaycan boyakarlıq sənəti tarixinə mənzərə janrının yaradıcılarından biri kimi həmişəlik həkk olunmuşdur. Səttar Bəhlulzadə müxtəlif rənglərin yeni çalarlarını kəşf edərək onların ahəngindən gözəl lövhələr yaratmışdır. Rəssamın rəng palitrasının zənginliyi, poetik əhval-ruhiyyə və kolorit gözəlliyi ilə seçilən orijinal üslublu əsərləri milli təsviri sənətin ən qiymətli inciləri sırasındadır.

XX əsr milli ədəbi-bədii fikir tarixinin görkəmli nümayəndəsi, yazıçı Mir Cəlal Paşayev Azərbaycan ədəbiyyatının inkişafı və onun məzmunca zənginləşməsində mühüm rol oynamışdır. Xalq yaradıcılığı ilə klassik bədii irsin qabaqcıl ənənələrinin vəhdətini yeni formada yaşadan və ədəbiyyata həyat gətirmiş yazıçı kimi tanınan Mir Cəlal Paşayev eyni zamanda görkəmli tədqiqatçı alim olmuşdur.

Tanınmış geoloq alim, 1939-1941-ci illərdə indiki Azərbaycan Dövlət Neft Akademiyasının rektoru, 1950-1958-ci illərdə Azərbaycan Elmlər Akademiyasının prezidenti olmuş akademik Musa Əliyev ölkəmizdə elmin inkişafı naminə müstəsna xidmətlər göstərmişdir.

2008-2009-cu illərdə "Leyli və Məcnun" operasının ilk tamaşasının, Xalq rəssamı Səttar Bəhlulzadənin, yazıçı Mir Cəlal Paşayevin və akademik Musa Əliyevin 100 illik yubileylərinin Azərbaycanda dövlət səviyyəsində keçirilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, Azərbaycan Bəstəkarlar İttifaqının, Azərbaycan Rəssamlar İttifaqının və Azərbaycan Yazıçılar Birliyinin təklifləri müvafiq şəkildə nəzərə alınmaqla, "Leyli və Məcnun" operasının ilk tamaşasının, Xalq rəssamı Səttar Bəhlulzadənin, yazıçı Mir Cəlal Paşayevin və akademik Musa Əliyevin respublikada, xarici

ölkələrdə və YUNESKO miqyasında 100 illik yubileylərinin təşkili ilə bağlı tədbirlər planlarını hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev,**
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 31 yanvar 2008-ci il***

# BÖYÜK AZƏRBAYCAN RƏSSAMI SƏTTAR BƏHLULZADƏNİN ANADAN OLMASININ 85 İLLİYİNƏ HƏSR OLUNMUŞ SƏRGİNİN AÇILIŞINDA AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ÇIXIŞI

Hörmətli incəsənət ustaları, mədəniyyət xadimləri, mədəniyyətimizi, incəsənətimizi sevənlər, qiymətləndirənlər! Hörmətli bacılar, qardaşlar! Bu gün Səttar Bəhlulzadənin anadan olmasının 85-ci ildönümü qeyd edilir. Səttar Bəhlulzadə adı Azərbaycan xalqının tarixinə qızıl hərflərlə yazılmış bir şəxsiyyətdir.

Azərbaycan xalqının mədəniyyəti böyük tarixə malikdir. Qədim əsrlərdə xalqımızın yaratdığı rəssamlıq sənəti, miniatür sənəti, Sultan Məhəmmədin miniatür məktəbi, ondan sonrakı dövrlərdə Azərbaycan rəssamlarının, Azərbaycan memarlarının yaratdıqları əsərlər xalqımızın mədəni-mənəvi irsidir.

İyirminci əsrdə Azərbaycan xalqı dünyaya böyük rəssamlar, heykəltəraşlar bəxş edibdir. Onların arasında Səttar Bəhlulzadə xüsusi yer tutur.

Səttar Bəhlulzadə yaradıcılığının özünəməxsus xüsusiyyəti var. Həmin xüsusiyyət onun əsərlərində aydın görünür. Bu qeyri-adilik onun daxili fəlsəfi aləmi ilə, onun dünyagörüşü və fitri istedadı ilə bağlıdır. Şübhəsiz ki, belə əsərlər yarada bilən adam, o dövrdə klassik üslubdan kənara çıxıb öz yolu ilə gedən, öz rəssamlıq məktəbini yaradan bir insan həm öz şəxsiyyətinə görə adi deyil, həm sənətkarlığına görə adi deyil, həm də yaradıcılığına görə adi deyil. Çox qeyri-adi bir insandır, çox qeyri-adi bir rəssamdır, mədəniyyət xadimidir. Ona görə də bizim rəngarəng mədəniyyətimizdə, o cümlədən rəssamlıq məktəbimizdə Səttar Bəhlulzadə yaradıcılığı ilə yeni bir səhifə, yeni bir yol, yeni bir üslub açılıbdır. Bu rəssam illər boyu yaşayacaq və heç şübhə etmirəm ki, zaman keçdikcə Səttar Bəhlulzadənin yaradıcılığı daha da yüksəklərə qalxacaq, onun əsərlərinin qiyməti daha da artacaqdır.

Mən Səttar Bəhlulzadə ilə şəxsən yaxından tanış idim. Onunla şəxsi əlaqələrim var idi. Sizə məlumdur ki, mən 25 il bundan öncə Azərbaycanın rəhbərliyinə gəlmişdim, ancaq ondan xeyli əvvəl Şəttar Bəhlulzadə bir rəssam kimi

mənim diqqətimi cəlb etmişdi və onunla görüşlərim, söhbətlərim olmuşdu. Onun bir insan kimi qeyrı-adiliyi və yaratdığı əsərlərin qeyri-adiliyi məni cəzb etmişdi. Sonralar da – mən Azərbaycanın rəhbəri olduğum zaman onunla görüşlərim olmuş və onun əsərlərinə həmişə yüksək qiymət vermişəm. Xatirimdədir, 1973-cü ildə onun əsərlərinə, deyəsən buradakı əsərlərin hansınasa Azərbaycanın Dövlət mükafatı verildi.

Bəli, bu, mənim də şəxsən iştirakımla, təşəbbüsümlə oldu. Demək istəyirəm ki, mən Səttar Bəhlulzadəni təkcə burada olan əsərləri ilə yox, yaxud da yazılarla yox, şəxsən tanıyırdım. Bir insan kimi, bir rəssam kimi ona hörmətim olmuşdu. Hələ 60-cı illərin əvvəllərində – o vaxt da hiss eləyirdim ki, Səttar Bəhlulzadənin Azərbaycan incəsənətində, rəssamlıq məktəbində özünəməxsus, çox görkəmli yeri var. Ondan sonrakı dövr də (indi çox vaxtlar keçibdir) bunu sübut etdi, mənim o vaxtkı hissiyyatlarımın üzərinə daha böyük hissiyyatlar gəldi. Zaman keçdikcə dünyada cürbəcür rəssamlıq məktəbləri yarandı, biz onları gördükcə, tanış olduqca Səttar Bəhlulzadənin nə qədər böyük sənətkar, nə qədər böyük rəssam olduğunu və onun

əsərlərinin nə qədər qiymətli olduğunu hamımız dərk etdik. Ona görə də mən Səttar Bəhlulzadənin 85 illiyinin yaxınlaşdığını bilən kimi xüsusi sərəncam verdim ki, bu yubiley geniş qeyd olunsun. Bununla əlaqədar mənim sərəncamımla komissiya yarandı. Baş nazirin müavini Elçin Əfəndiyev bu komissiyaya başçılıq edir və indi yubileyə hazırlıq işləri başa çatıb.

Bu gün Səttar Bəhlulzadənin 85-ci ildönümü təntənəli surətdə qeyd olunacaqdır. Mən tam əminəm ki, gələcək nəsillər görkəmli sənətkarın yaradıcılığına bundan da yüksək qiymət verəcəklər. Səttar Bəhlulzadənin yaradıcılığı Azərbaycan xalqının həyatında daim öz yerini tutacaqdır. Mən burada yazdığım sözləri bir də təkrar etmək istəyirəm. Onun yaradıcılığı bizim üçün mənəviyyat mənbəyidir, xalqımızı, onun mədəniyyətini yüksəklərə qaldırır. Xalqımızın mədəniyyətinin, rəssamlıq məktəbinin professsional səviyyəsinin nə qədər yüksək olduğunu bütün dünyaya göstərir. Eyni zamanda xalqımızın rəssamlıq məktəbinin yenı, orijinal üslubda əsərlər yaratmağa qadir olduğunu sübut edir. Bu, bizim fəxrimizdir. Bu, xalqımızın gələcəyi üçün, mədəniyyətimizin inkişafı üçün böyük bir əsasdır.

Mən sizin hamınızı bu münasibətlə təbrik edirəm və bir daha bu sərgiyə, görkəmli rəssamın əsərlərinə, Səttar Bəhlulzadənin xatirəsinə, onun şəxsiyyətinə hörmət və ehtiramımı bildirirəm. Sağ olun!

R.Mustafayev adına Azərbaycan
Dövlət İncəsənət Muzeyi
17 dekabr 1994-cü il

# BÖYÜK AZƏRBAYCAN RƏSSAMI SƏTTAR BƏHLULZADƏNİN ANADAN OLMASININ 85 İLLİYİ MÜNASİBƏTİLƏ TƏNTƏNƏLİ YUBİLEY GECƏSİNDƏ AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ÇIXIŞI

Hörmətli həmvətənlər! Mədəniyyət xadimləri, incəsənət pərəstişkarları!

Möhtərəm bacılar və qardaşlar!

Bu günlər biz böyük rəssam, sənətkar, böyük insan Səttar Bəhlulzadənin anadan olmasının 85-ci ildönümünü qeyd edirik. Bu, bizim həyatımızda əlamətdar hadisədir. Biz, xalqımız, vətəndaşlarımız, dövlətimiz Səttar Bəhlulzadənin yubileyini qeyd edərkən mədəniyyətə, incəsənətə hörmət və ehtiramımızı, münasibətimizi bıldiririk. Səttar Bəhlulzadə Azərbaycan Respublikasının və Azərbaycan xalqının mədəniyyətində çox görkəmli yer tutduğuna görə və böyük mədəni irs qoyduğuna

görə onun yubileyinin belə təntənəli keçməsi və ümumi bayrama çevrilməsi tam əsaslıdır.

Azərbaycan xalqı zəngin mədəniyyət və incəsənət tarixinə malikdir. Xalqımız əsrlər boyu dünya sivilizasiyasına və mədəniyyətinə böyük töhfələr vermişdir. Mədəniyyətimizin böyük bir sahəsi rəssamlıq sənətidir və bu sahədə də Azərbaycan xalqının dünya mədəniyyətində öz yeri var.

Şərq aləmində keçmiş dövrlərdə – orta əsrlərdə, qədim zamanlarda rəssamlıq sənəti miniatür üslubunda idi. Azərbaycanın böyük sənətkarı Sultan Məhəmməd beş yüz il bundan öncə böyük miniatür rəssamlığı məktəbi yaratmış və o məktəb davam edərək bütün Şərq aləminə öz təsirini göstərmişdir. Azərbaycan xalqı bununla fəxr edir. Onun bu gün də davamçıları var. Miniatür rəssamlıq sənəti bütün dünyada tanınmış və çox yüksək qiymətləndirilən rəssamlıq məktəbi və üslubudur. Bir daha deyirəm, biz bununla fəxr edirik və gələcək nəsillər də fəxr edəcəklər.

Eyni zamanda XX əsr Azərbaycan xalqının mədəni həyatında böyük hadisələr dövrü olubdur. XX əsrdə mədəniyyətimiz bütün

sahələrdə sürətlə inkişaf edib, dünya mədəniyyətinə böyük simalar bəxş edib. Onların arasında rəssamlıq sahəsində Səttar Bəhlulzadənin xüsusi yeri var. O, nəinki Azərbaycan, həm də bütün dünya mədəniyyəti üçün, dünya rəssamlıq sənəti üçün görkəmli bir simadır və böyük mədəni irs qoymuşdur.

Azərbaycan xalqı belə bir şəxsiyyəti ilə, belə bir insanla fəxr edir və bundan sonra da fəxr edəcəkdir.

Mən bilirəm ki, bu salona toplaşanlar Səttar Bəhlulzadə sənətinin pərəstişkarlarıdır, onun sənətinin əhəmiyyətini, mənasını qiymətləndirən adamlardır. Ancaq təkcə biz yox, hesab edirəm ki, bütün xalqımız Səttar Bəhlulzadə sənətinə yüksək qiymət verir və onunla fəxr edir. Ona görə də bu gün bizim üçün böyük mədəniyyət bayramıdır. Bu mədəniyyət bayramı münasibətilə və Səttar Bəhlulzadə günü münasibətilə sizin hamınızı təbrik edirəm!

Bu gün Səttar Bəhlulzadənin əsərlərindən ibarət sərgiyə baxdıq. Şübhəsiz ki, bu sərgidə görkəmli rəssamın əsərlərinin az bir qısmi toplanmışdır. Səttar Bəhlulzadənin yaradıcılığına bələd olan adamlar onu tədqiq edənlər və tanı-

yanlar bilırlər ki, o həm böyük sənətkar idi, həm də çox məhsuldar işləyən adam idi. Bir sıra başqalarından fərqli olaraq daim işləyırdi, çoxlu əsər yaradırdı və bu əsərləri də dostlarına və tanışlarına, ayrı-ayrı təşkilatlara təmənnasız bağışlayırdı. Ona görə də əgər Səttar Bəhlulzadənin əsərlərindən ibarət sərgi yaratmaq fikrinə gəlsək və onun əsərlərinin hamısını toplamalı olsaq, bunun üçün bir salon yox, bir neçə salon da çatmaz. Ancaq bugünkü sərgidə toplanan əsərlər də Səttar Bəhlulzadənin yaradıcılığının, sənətkarlığının nə qədər böyük və təsirli olduğunu tam əks etdirir.

Səttar Bəhlulzadə Azərbaycan rəssamlıq sənətində yeni bir məktəb yaratmışdır. Onun əsərləri, sənətkarlıq və rəssamlıq üslubu çox orijınal və özünəməxsusdur. Sənətkarı tanıyan adamlar bu əsərləri görən kimi deyirlər ki, onun müəllifi Səttar Bəhlulzadədir.

Səttar Bəhlulzadənin davamçıları var və şübhəsiz ki, olacaqdır. Onun əsərləri yaşayacaq və şagirdləri yeni-yeni sənət nümunələri yaradacaqlar. Ancaq Səttar Bəhlulzadə Azərbaycanda bu janrın, bu üslubun və öz rəssamlıq

məktəbinin banisidir. O, çox böyük, dəyərli və qiymətli əsərlər yaratmışdır. Səttar Bəhlulzadə Azərbaycan deməkdir. Onun əsərləri Azərbaycanı təsvir edir, Azərbaycanı göstərir, əks etdirir. Bu, rəssamın öz torpağına, öz vətəninə və xalqına nə qədər bağlı olduğunu göstərir. O, elə bir böyük sənətkardır ki, istənilən mövzuda və süjetdə əsər yarada bilərdi. Ancaq onun əsərlərinin demək olar ki, əksəriyyəti Azərbaycanı və ölkəmizin əsasən bütün bölgələrini təsvir edir. Bunu etmək üçün Səttar Bəhlulzadəyə şübhəsiz ki, bütün Azərbaycanı gəzmək və onun hər yeri ilə tanış olmaq gərək idi. Səttar Bəhlulzadə bu yolu da keçmişdir. Azərbaycanı dərindən tanıyan adam kimi, o, vətənimizi çox gözəl təsvir edibdir. Onun yaratdıqları adi rəsm əsərləri deyildir. Səttar Bəhlulzadə yaradıcılığa klassik üslubdan başlayıb – biz sərgidə bunun nümunəsini gördük, – sonra isə özünəməxsus, öz aləminə, öz dünyasına, öz fəlsəfəsinə məxsus bir rəssamlıq yolu seçib və həmin yola daim sadiq olubdur. O vaxtlar – 50-ci və 60-cı illərdə, yəni Səttar Bəhlulzadənin ilk əsərləri yaranan zaman bəziləri onu anlamırdılar, bəziləri qəbul etmirdilər. Bəziləri isə bu əsərlərin nə qədər

qiymətli olduğunu bilmirdilər. Ona görə də bəzən klassik üslubda çəkilən əsərlərə üstünlük verilirdi, Səttar Bəhlulzadənin əsərləri isə kənarda qalırdı. Ancaq zaman keçdi və Səttar Bəhlulzadə çox inadla öz yaratdığı üslubu, öz məktəbini davam etdirdi və yeni bir rəssamın yaranmasını nəinki Azərbaycana, həm də bütün dünyaya nümayiş etdirdi. Çox vaxt keçmədi, o, təkcə Azərbaycanda yox, dünyanın bir çox ölkələrində görkəmli bir rəssam – xüsusi üsluba, xüsusi istedada malik olan rəssam kimi tanındı.

Cəttar Bəhlulzadə öz əsərləri ilə Azərbaycan mədəniyyətini zənginləşdirdi, dediyim kimi, yeni bir rəssamlıq məktəbi yaratdı və incəsənətimizi zənginləşdirdi. Eyni zamanda o, Azərbaycanın mədəniyyətini, incəsənətini bütün dünyaya tanıtdı. Əgər Avropa Pikasso kimi böyük rəssamı ilə fəxr edirsə, biz də, şübhəsiz ki, Pikassonu böyük rəssam kimi tanıyırıq, onun əsərlərinə dərin hörmət edərək, eyni zamanda iftixar hissi ilə deyə bilərik ki, Azərbaycanın da Pikassoya bərabər Səttar Bəhlulzadə kimi rəssamı var və Azərbaycan da onunla fəxr edə bilər.

Rəssamın yaratdığı əsərlər yaşayır və gələcəkdə də yaşayacaqdır. Qeyd etdiyim kimi, ilahidən verilən fitri istedad onun fədakarlığı, inamla öz sənətini yaratmaq və inkişaf etdirmək əzmi Səttar Bəhlulzadəni böyük sima etmişdir, onun Azərbaycan üçün belə zəngin töhfələr verməsinə şərait yaratmışdır. Bu il rəssamın yubileyi ilə əlaqədar Nyu-Yorkda BMT-nin binasında, İstanbulda və başqa yerlərdə onun əsərlərinin sərgisi nümayiş etdirilibdir. Ancaq Səttar Bəhlulzadənin dünyada tanınmasını təkcə bunlar göstərmir. Rəssamın əsərlərini indi bir çox ölkələrdə tapmaq olar. Axtarsaq, onun əsərlərini ayrı-ayrı adamlarda, sənətsevərlərdə tapa bilərik.

Onun özünəməxsus aləmi var idi. O, bir insan kimi fəlsəfəyə bağlı adam idi. Ona görə də Səttar Bəhlulzadənin yaratdığı əsərlər, onun həyatı rəssamın daxili dünyasının nümayişidir. Mən onu yaxşı tanıyırdım. 60-cı illərin əvvəllərində Səttar Bəhlulzadə ilə şəxsi münasibətim var idi və mən Azərbaycana rəhbərlik edərkən onun sənətini sevdiyimə və bir insan kimi ona hörmət etdiyimə görə bu böyük rəssamla təmaslarım olmuşdur.

O, qeyri-adi bir insan idi. Qeyri-adiliyini öz əsərləri ilə hamıya nümayiş etdiribdir. Rəssamı tanımayan adamlar da onun orijinallığını, novatorluğunu öz gözləri ilə görmüşlər. Bu gün bu salonda olanların bir çoxu bəlkə onu görməmiş və şəxsən tanış olmamışdır, amma əsərlərinə əsasən bunların hamısını hiss edirlər. O, bir insan kimi də əzmkar və fədakar, sənətini çox sevən və bütün həyatını öz sənətinə həsr edən adam idi. Bu insan heç vaxt şan-şöhrət, ad, mükafat dalınca getməmişdir. Belə şeylər onu heç vaxt maraqlandırmamışdır. Buna görə onun həyatı da çox sadə və təvazökar olmuşdur. Bəlkə də onun şəxsi həyatı, yaşayışı çox çətin keçmişdir, – mən bunları da bilirəm, – ancaq bununla bərabər, onun daxili aləmi, mənəviyyatı, yaratdığı əsərlər o qədər böyükdür ki, bunlar Səttar Bəhlulzadəni bizə böyük bir sima kimi tanıdıbdır və gələcəkdə də tanıdacaqdır.

Mən Səttar Bəhlulzadənin 85 illik yubileyinin keçirilməsi haqqında sərəncam verərkən, bu qərarı, şübhəsiz ki, bir tərəfdən onun yaradıcılığına yüksək qiymət verilməsi üçün qəbul etdim və digər tərəfdən bu, bizim

hamımızın, müstəqil Azərbaycan dövlətinin mədəniyyətimizə, incəsənətimizə, rəssamlarımıza və onların sənətinə olan hörmət və ehtiramının rəmzidir, təzahürüdür. Eyni zamanda biz bu yubileyi keçirərkən vəzifələrimizi də bilməliyik. Bu vəzifələr ondan ibarətdir ki, biz Səttar Bəhlulzadənin əsərlərinin hamısını toplamalıyıq, onların kataloqunu hazırlamalıyıq.

Görkəmli sənətkarın adına bir rəssamlıq mərkəzi açmalıyıq, Səttar Bəhlulzadə muzeyi yaratmalıyıq. Doğrudur, onun yaşadığı yerdə ev muzeyi var. Bu, təbiidir və vaxtilə yaranıbdır. Biz onu qoruyub saxlamalıyıq. Ancaq mən muzey deyəndə Səttar Bəhlulzadənin əsərlərindən ibarət daimi muzeyin yaranmasını nəzərdə tuturam. Çünki rəssamın həm həyatı, həm də yaradıcılığı, əsərləri, mədəni və mənəvi irsi xalqımızın bu günü və gələcəyi üçün mənəviyyat mənbəyidir, məktəbidir. Xalqımızın estetik tərbiyəsini daha da gücləndirmək üçün Səttar Bəhlulzadənin əsərlərindən istifadə etməliyik. Ona görə də belə bir mərkəzin, belə bir muzeyin yaranması çox zəruridir. İndi həyatımız nə qədər çətin, ağır olsa da, biz heç vaxt mədəniyyəti unutmamalıyıq. Mədəniyyət həmişə bizimlə

bərabər olmalıdır, mədəniyyətə qayğı göstərməliyik, onu inkişaf etdirməliyik. Çünki bu çətin günlər müvəqqətidir. Ancaq həyat daimidir. Mədəniyyət də, rəssamlıq da daimidir. Buna görə də gələcək nəsillərin tərbiyəsi üçün, onları Səttar Bəhlulzadə həyatının nümunəsində tərbiyə etmək, onun sənətə bağlılığı, fədakarlığı, işgüzarlığı, təvazökarlığı nümunəsində böyütmək və eyni zamanda gələcək nəsilləri rəssamın yaratdığı əsərlərin mənəvi və fəlsəfi təsiri altında yetişdirmək üçün biz Cəttar Bəhlulzadə irsinə çox böyük diqqət yetirməliyik.

Biz buna çox ehtiyatla yanaşmalıyıq, ona qayğı göstərməliyik və elə etməliyik ki, bu əsərlər toplansın, bizım böyük bir mədəniyyət mərkəzində olsun, indi və gələcəkdə Səttar Bəhlulzadənin yaradıcılığı timsalında mədəniyyətimizi inkişaf etdirib irəli apara bilək.

Biz Səttar Bəhlulzadənin yubileyini qeyd edərkən bütün incəsənət xadimlərinə, rəssamlarımıza öz hörmət və ehtiramımızı göstəririk. Mən bu gün böyük iftixar hissi ilə deyə bilərəm ki, XX əsrdə Azərbaycan rəssamlıq məktəbi, Azərbaycan rəssamları dünya miqyasında

görkəmli yer tutmuşlar. Bunu bütün dünya rəssamlarının işləri ilə tanış olan bir adam kimi, onlarla müqayisə edərək tam əsasla deyə bilərəm. Bəzən biz özümüz ətrafımızda olan inciləri qiymətləndirə bilmirik. Ancaq bu həqiqətdir ki, XX əsrdə, xüsusən 30-cu illərdən sonra Azərbaycanda gözəl, böyük, çoxsahəli və çoxşaxəli rəssamlıq məktəbi yaranıb, böyük rəssamlar yetişibdir.

Onlar Azərbaycan rəssamlıq məktəbini dünyaya tanıdıblar. Biz bununla fəxr edirik. Bütün rəssamlarımızın əsərlərinə qayğı ilə yanaşmalıyıq və gözəl əsərlər yaratmalarına şərait təmin etməliyik.

Altı ildir ki, müharibə içərisindəyik. Bu dövr Azərbaycanın həyatı üçün ağır, əzab-əziyyətli bir dövrdür. Eyni zamanda bu, sınaq, imtahan dövrüdür. Bu dövr mədəniyyətimizin bütün sahələrində, o cümlədən də rəssamlarımızın əsərlərində gərək öz əksini tapsın. Həmin əsərlər də indi yaradılmalıdır. Mənim xatirimdədir, 1990-cı il faciəsindən sonra rəssamlarımızda böyük bir coşqunluq əmələ gəlmişdi. Onlar çox böyük hissiyyatla o günləri, o dövrü öz əsərlərində əks etdirirdilər.

Mən o vaxt Moskvadan Bakıya gələndə bir sıra yeni əsərlər gördüm və çox sevindim. Ancaq indi yaşadığımız dövr – Azərbaycanın öz müstəqilliyini əldə etməsi və onu müdafiə etməsi, torpaqlarını qorumaq uğrunda vuruşması, xalqımızın qanının tökülməsi, şəhidlər verməsi, bir milyondan artıq qaçqın və onların vəziyyəti – bunlar Azərbaycan tarixinin böyük bır səhifəsidir. Bu, gərək bütün mədəniyyət və incəsənət ustalarımızın əsərlərində öz əksini tapsın. Mən arzu edərdim ki, rəssamlarımız da bu dövrü öz əsərlərində əks etdirsinlər.

Güman edirəm ki, bugünkü yubiley toplantısı, Səttar Bəhlulzadənin yaradıcılığına, şəxsiyyətinə verilən qiymət rəssamlarımızı daha da ruhlandıracaq, onlar həm xalqımızın tarixi keçmişi, həm də bu günü və xüsusən son illər haqqında gözəl əsərlər yaradacaqlar.

Mən sizin hamınızı Səttar Bəhlulzadənin 85 illiyi, bu bayram münasibətilə təbrik edirəm. Bir daha demək istəyirəm ki, Səttar Bəhlulzadənin həyatı, yaradıcılığı, onun əsərləri bu günümüz və gələcəyimiz üçün mənəviyyat mənbəyidir. Biz fəxr edə bilərik ki, Azərbaycan xalqı, Azərbaycan

torpağı, Bakı şəhəri, Əmircan torpağı belə böyük insan, böyük bir sima, dünya mədəniyyətində özünə layiq yer tutan Səttar Bəhlulzadə kimi insan yetiribdir.

Eşq olsun Azərbaycan mədəniyyətinə!
Sağ olun!

Respublika Sarayı
17 dekabr 1994-cü il

## ÖN SÖZ

Azərbaycanın Xalq rəssamı, Əməkdar incəsənət xadimi, müasir Azərbaycan boyakarlıq sənətində mənzərə janrının yaradıcılarından biri olan Səttar Bəhlulzadənin bu il anadan olmasının 100 illiyi tamam olur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə YUNESKO-nun görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin qeyd edilməsi proqramına daxil edlmiş Səttar Bəhlulzadənin yubileyi dövlətimiz və Azərbaycan ictimaiyyəti tərəfindən qeyd olunacaqdır.

M.F.Axundov adına Milli Kitabxana tərəfindən tərtib edilmiş "Səttar Bəhlulzadə. Biblioqrafiya" kitabı görkəmli rəssamın həyat və yaradıcılığını əks etdirən ilk təşəbbüsdür.

Azərbaycan və rus dillərində tərtib edilmiş biblioqrafik göstəricidə rəssamın həyat və fəaliyyətinin əsas tarixləri, görkəmli şəxsiyyətlərin onun haqqında ürək sözləri və rəssam haqqında çap olunmuş materiallar xronoloji qaydada verilmişdir.

Göstəricinin sonunda görkəmli rəssamın Azərbaycan Dövlət İncəsənət Muzeyinin fondunda

mühafizə olunan 132 ədəd rəngkarlıq əsərinin və 20 ədəd qrafika əsərlərinin siyahısı verilmişdir.

Vəsaitdən istifadəni asanlaşdırmaq məqsədilə sonda "Müəlliflərin əlifba göstəricisi" və "Sərlövhələrin əlifba göstəricisi" də tərtib olunmuşdur.

Bu göstərici görkəmli rəssamın həyat və fəaliyyətini əks etdirən ilk biblioqrafiya olduğu üçün müəyyən xırda qüsurlardan da xali deyildir və buna görə də vəsait haqqında rəy və təklifləri göndərən mütəxəssislərə və oxuculara əvvəlcədən minnətdarlığımızı bildirir, arzu və iradlarını M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasına göndərmələrini xahiş edirik.

Ünvan: AZ-1000, Bakı şəhəri, Xaqani küçəsi,29
E-mail: contact@anl.az; www.anl.az

# SƏTTAR BƏHLULZADƏ

Səttar Bəhlul oğlu Bəhlulzadə 1909-cu ildə Bakının Əmircan kəndində anadan olmuşdur. Orta təhsil aldıqdan sonra o, 1927-1931-cı illərdə Azərbaycan Rəssamlıq Məktəbində oxumuşdur. İstedadlı gənc rəssam yaradıcılığa o dövrdə artıq yaxşı tanınan və sevilən rəssam Əzim Əzimzadənin rəhbərliyi ilə "Kommunist" qəzetində başlamışdır. 1931-1933-cü illərdə qəzetdə onun müasir məz-munlu ilk karikaturaları çap olunmuşdur. Lakin ustadı ona qabiliyyətini boyakarlıqda sınamağı, bunun üçünsə təhsilini davam etdirməyi məsləhət görmüşdür.

Beləliklə, gənc Səttar Moskvaya yollanır və Moskva Dövlət Rəssamlıq İnstitutuna daxil olur. Burada o, 1933-1940-cı illərdə məşhur rəssamlar V.A.Favorski və Q.M.Şaqalın rəhbərliyi altında ümumən rəssamlıq sənətini, o cümlədən də boyakarlığın sirlərini öyrənir.

Vətənə qayıdar-qayıtmaz rəssam faşist Alma-niyasının SSRİ-yə hücuma keçməsi xəbərini eşidir. Respublikamızın elm və mədəniyyət xadimləri ilə birlikdə, Azərbaycan rəssamları da bu dövrdə bütün

qüvvələrini xalqımızı qələbəyə ruhlandıran sənət əsərləri yaratmağa sərf edirlər. Siyasi-təşviqat plakatları çəkir, səyyar rəsm sərgiləri yaratmaq sahəsində yorulmaq bilmirlər. Vətən müharibəsi, yadelli qəsbkarlara nifrət rəssamlarımızın əsas movzuları idi.

1941-1945-ci illərdə Səttar Bəhlulzadə "Babək üsyanı", "Fətəli xan" əsərlərini çəkir. Bu əsərlərdə o, torpaqları uğrunda canlarını fəda etməyə hazır olmuş tarixi şəxsiyyətləri təsvir etmişdir. "Bəzz qalasının müdafiəsi" lövhəsi boyaların ahəngi, koloritin dürüstlüyü ilə fərqlənir, eyni zamanda, vətən torpağına məhəbbət hissi aşılayır.

Müharibədən sonrakı illərdə Səttar Bəhlulzadənin yaradıcılığında təbiət təsvirlərinə meyl getdikcə güclənir, o, mənzərə janrında daha bitkin əsərlər yaratmağa başlayır. 1946-1947-ci illərdə respublika bədii sərgilərində rəssamın Abşeron etüdləri – "Buzovnada neft mədənləri", "Əmircan", "Bakıda atəşfəşanlıq" və s. əsərləri nümayiş etdirilir. Tənqidçilər yeni üslubda işləyən istedadlı rəssamın getdikcə daha artıq püxtələşdiyini qeyd edirlər.

Səttar Bəhlulzadə təəssürat rəssamıdır. O, təbiətin zəngin boyalarından, günün müxtəlif çağlarından, ilin fəsillərindən aldığı təəssüratları

yalnız ona məxsus xüsusi məharətlə verə bilirdi. Onun “Qədim atəş” (1967), “Odlu torpaq”, “Əbədi məşəllər”, “Abşeron tağı” (1970) mənzərələrində fərdi təəssüratdan doğan lirik hisslər, həyəcanlar həlledici rol oynayır.

Azərbaycanımızın müxtəlif rayonlarını qarış-qarış gəzən rəssam bir çox təbiət mənzərələri yaratmışdır. Rəssamı ilhama gətirən təbiət motivləri rəngarəngdir. O, səfalı dağ mənzərələrini, meyvə bağlarını, bərəkətli pambıq tarlalarını, baharın gözəlliyini, payızın qızılı rənglərini dönə-dönə, hər dəfə də vurğunluqla tərənnüm etmişdir. “Doğma düzənliklər” (1957), “Gölməçələrdə ördəklər” (1955) şairanə mənzərələrində Lənkəranın təbiətini əks etdirən rəssam “Yuxarı Daşaltı” (1955), “Cıdır düzü” (1957), “Dumanlı dağlar” (1957), “Yaşıl xalça” (1957) lövhələrində Qarabağın səfalı yerlərini fırçasının möcüzəsi ilə kətan üzərində canlandırmışdır.

Müşahidəçi rəssam hər dəfə yeni-yeni mənzərə motivləri tapır, təbiətin gözəlliklərini insan əməyi ilə əlaqələndirirdi. Bu mənada rəssamın Abşeron təbiətinə həsr etdiyi “Neft daşları” mənzərə silsiləsi onun yaradıcılığında xüsusi yer tutur. Həmin silsilə Xəzərdə salınmış əfsanəvi neft şəhəri haqqında

poetik təsəvvür yaradır. Bəhlulzadənin gərgin yaradıcılıq axtarışlarınm məhsulu olan “Xəzər gözəli” (1960), “Suraxanı atəşgahı” (1970), “Əfsanəvi torpaq” (1971) əsərlərində rəssam tədricən rəng palitrasını zənginləşdırmis, koloritin dekorativliyinə nail olmuşdur. “Xəzər üzərində axşam” (1958) mənzərəsi rəssamın geniş şöhrət qazanmış əsərlərindəndir. Mavi, gümüşü dumanlar arasından göy dənizin səthı üzərində yüksələn əfsanəvi estakada və neft buruqları sanki zühur edir. Bu qəribə mənzərə təbiətin sənaye ilə vəhdətini göstərən şairanə nəğmə kimi səslənir.

Səttar Bəhlulzadənin lirik, poetik mənzərələr ustası olmasını 1947-1953-cü illərdə yaratdığı “Qudyalçay sahili”, “Qudyalçay vadisi”, “Qızbə-növşəyə gedən yol”, həmçinın “Kəpəzin göz yaşları” (1965), “Vətənimin baharı” (1967), “Azərbaycan nağılı” (1970), “Şahnabat” (1973), “Naxçıvan. Axşamçağı Ordubad bağlarında” (1974) mənzərələri birmənalı şəkildə təsdiqləmişdir. O, real mənzərə motivlərini rəssam təxəyyülünün məhsulu olan şərti təsvir formaları ilə əlaqələndirməyi bacarmışdır. Mənzərələrin koloritində açıq rənglərin vəhdəti (ağ, mavi, çəhrayı, yaşıl və s.) əsas yer tutur. “Muğanda bahar” (1961), “Bağlar arasında” (1960), “Çiçək-

lənən torpaq" (1960), "Torpağın arzusu" (1964), "Nağıl" (1970) və s. əsərlərində doğma torpağa və onu dəyisdirən zəhmət adamlarına hədsiz məhəbbət elə ilk baxışdaca aşkar duyulur.

Məhsuldar fəaliyyətinə və yüksək sənətinə görə Azərbaycan SSR Əməkdar incəsənət xadimi (1960), Azərbaycan SSR Xalq rəssamı (1963) fəxri adlarına layiq görülmüş rəssama 1972-ci ildə yekdilliklə Azərbaycan SSR Dovlət mükafatı verilmişdir. O, iki "Qırmızı Əmək Bayrağı" ordeni və medallarla təlfif edilmişdir.

Səttar Bəhlulzadənin tabloları respublika, ümumittifaq, habelə rəssaramın fərdi sərgilərində göstərilmiş, Əlcəzair, Misir, Livan, Suriya, Tunis, Norveç, Almaniya, Çexiya, Bolqarıstan, Macarıstan, Rumıniya, İraq, Kuba, Kanada, Belçika, Fransa, Yaponiya və s. ölkələrdə keçirilən sovet təsviri sənəti sərgilərində nümayiş etdirilmişdir.

1964-cü ildə Praqada onun qrafika əsərlərindən ibarət fərdi sərgisi təşkil olunmuşdur. Hal-hazırda Səttar Bəhlulzadənin əsərləri R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyində və Azərbaycan Dövlət Şəkil Qalereyasında, eləcə də Moskva və s. şəhərlərin muzeylərində və çox böyük hissəsi şəxsi kolleksiyalarda saxlanılır.

Görkəmli Azərbaycan rəssamı, müasir Azərbaycan boyakarlıq sənətində mənzərə janrının yaradıcılarından və ən böyük ustadlarından biri Səttar Bəhlulzadə 1974-cü ildə Moskvada vəfat etmiş, Əmircana gətirilərək doğma kəndində dəfn olunmuşdur.

**S.Əhmədov,**
***Tarix elmləri namizədi***

## HƏYAT VƏ FƏALİYYƏTİNİN ƏSAS TARİXLƏRİ

| | |
|---|---|
| **1909** | - Bakının Əmircan kəndində anadan olmuşdur. |
| **1927-1931** | - Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda təhsil almışdır. |
| **1931-1933** | - Görkəmli rəssam Əzim Əzimzadə ilə birlikdə Kommunist" qəzetində qrafik rəssam kimi işləmişdir. |
| **1933** | - Moskva Rəssamlıq İnstitutunun Qrafika fakültəsinə daxil olmuşdur. |
| **1939** | **-** Professor Şeqalın emalatxanasında "Qaraçı qadın" etüdünü işləmişdir. |
| **1940** | - Diplom işi kimi "Babək üsyanı" tablosunu çəkmiş, Böyük Vətən müharibəsi |

| | |
|---|---|
| | başladığına görə diplom işini müdafiə edə bilməmişdir. |
| **1941** | **-** Bakiya qayıdaraq Rəssamlıq məktəbində müəllimlik etmişdir. |
| **1941-1946** | - Tarixi mövzularda “Azərbaycan xalqının qəhrəman oğulları”, “Fətəli xan”, “Xəttat Mirzəli” portretlərini çəkmişdir. |
| **1946** | **-** Moskvada Ümumittifaq Rəssamlıq sərgisində “Xəttat Mirzəli” portreti nümayiş etdirilmişdir. |
| **1947** | - “Şəhər” adlı mənzərə rəsmi ilə Ümumittifaq Rəssamlıq sərgisində iştirak etmişdir. |
| **1947** | - “Salyut” əsərini yaratmışdır. |

| | |
|---|---|
| **1952** | - "Qudyalçay vadisi", "Qudyalçay sahili", "Qızbənövşəyi yol" mənzərələrini yaratmışdır. |
| **1953** | - "Neft daşları", "Estekada", "Dəniz mədənləri", "Dənizdə buruqlar" tablolarını çəkmişdir. |
| **1954** | - "Səhər şəfəqləri", "Bağlar arasında", "Qızıl axşam", "Payız küləyi" mənzərələrini yaratmışdır. |
| **1955** | **-** "Doğma düzənlər" mənzərəsini tamamlamışdır. |
| | - Tbilisi və Yerevan şəhərlərində fərdi yaradıcılıq sərgisi açılmışdır. |
| **1955-1957** | - "Cıdır düzü", "Şuşa ətrafında", "Yuxarı daşaltı" mənzərələrini çəkmişdir. |

| | |
|---|---|
| **1958** | **-** "Xəzər üzərində axşam" əsərini tamamlamışdır. |
| **1960** | - "Xəzər gözəli", "Kür üzərində qürub" tablolarını yaratmışdır. |
| | - Azərbaycan SSR Əməkdar incəsənət xadimi adına layiq görülmüşdür. |
| **1961** | - "Bahar çiçəkləri" mənzərəsini çəkmişdir. |
| **1962** | - "Torpağın arzusu" əsərini yaratmışdır. |
| **1963** | **-** Azərbaycan SSR Xalq rəssamı fəxri adını almışdır. |
| | - "Əbədi məşəllər" əsərini tamamlamışdır. |
| **1964** | - "Bozdağın ətəkləri" tablosunu çəkmişdir. |

**1965** - "Laza kəndinin şəlalələri", "Cənub küləyi", "Bazardüzü ətrafı", "Daşlı meşə", "Meyvələr", "Kəpəzin göz yaşları", "Oyanma", "Tut ağacları" əsərlərini yaratmışdır.

**1967** - "Qədim od" tablosunu çəkmişdir.

**1968** - "Qüdrətli ağac" və "Vətənimin baharı" əsərini yaratmışdır.

**1969** - "Astara portağalları", "Zəfəranla natürmort", "İlandağ" mənzərələrini yaratmışdır.

**1970** - "Azərbaycan nağılı", "Suraxanının qədim adları", "Şahnabad dağları", "Kəlağayı", "Əmircan kəndi", "Mərdəkan bağlarında", "Sahil", "Dağ

gölü", "Suraxanı atəşgahı" rəsmlərini çəkmişdir.

**1971** - "Corat yemişləri", "Füzuli", "Qədim Şamaxı","Şamaxıda payız", "Şamaxı üzümlükləri", "Girdman düzü", "Odlar yurdu", "Muğan gözəli", "Şahnabad şəlalələri", "Əfsanəvi torpaq" tablolarını yaratmışdır.

**1972** - "Buzovna sahili", "Muğan söyüdləri", "Mərdəkan", "Şahdağ", "Qara tut", "Dədəgünəş", "Qudyalçay", "Qusar", "Bilgəh", "Nar çiçəkləri", "Gülüstan qalası", "Nardaran", "Dağ çayı", "Qayalar", "Yaz çiçəkləri", "Çiçəklənən ağaclar", "Bakı natürmortu", "Sərv ağacları", "Qədim Lazada şəlalə" mənzərələrini yaratmışdır.

- Azərbaycan SSR Dövlət mükafatı laureatı adına layiq görülmüşdür.

**1973** - "Şahnabad", "Qış mənzərəsi", "Mərdəkan bağlarında", "Qəçrəş", "Xəzər sahili", "Naxçıvan dağları", "Mavi qayalar", "Qırmızı dağlar", "Yaşıl mənzərə", "Quba mənzərəsi", "Badam çiçəyi", "Kəpəzin aynası", "Doğulduğum kənd", "Çəhrayı dağlar", "Külək", "Bahar etüdü" tablolarını çəkmişdir.

**1974** - "Laza ətrafında", "Çiçək və meyvələr", "Bahar", "Naxçıvan", "Axşamçağı Ordubad dağlarında", "Laləli düz" tablolarını yaratmışdır.

**1974** - Oktyabr ayının 13-də Moskva şəhərində dünyasını dəyişmiş, öz vəsiyyəti ilə

doğulduğu Əmircan kəndində dəfn edilmişdir.

**1994** - BMT-nin Nyu-Yorkdakı iqamətgahında sərgisi təşkil edilmişdir.

# GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏR SƏTTAR BƏHLULZADƏ HAQQINDA

Səttar Bəhlulzadə çox böyük, dəyərli və qiymətli əsərlər yaratmışdır. Səttar Bəhlulzadə Azərbaycan deməkdir. Onun əsərləri Azərbaycanı təsvir edir, göstərir, əks etdirir. Bu rəssamın öz torpağına, öz Vətəninə və xalqına nə qədər bağlı olduğunu göstərir. O, elə bir böyük sənətkardır ki, istənilən mövzuda və süjetdə əsər yarada bilərdi. Ancaq onun əsərlərinin demək olar ki, hamısı Azərbaycanı təsvir edir.

**Heydər Əliyev**,
***ümummilli lider***

Səttar Bəhlulzadə müxtəlif rənglərin yeni çalarlarını kəşf edərək onların ahəngindən gözəl lövhələr yaratmışdır. Rəssamın rəng palitrasının zənginliyi, poetik əhval-ruhiyyə və kolorit gözəlliyi ilə seçilən orijinal üslublu əsərləri milli təsviri sənətin ən qiymətli inciləri sırasındadır.

**İlham Əliyev**,
***Azərbaycan Respublikasının Prezidenti***

Səttar gülləri sevir, güllər isə onu daha çox sevir.

**Anri Fujeuon**,
***Fransız rəssamı***

O, insanların ruhunu və zövqünü oxşamaq, "Həyat gözəllikdir" həqiqətini sənətiylə sübut etmək üçün öz taleyini, şəxsi həyatını əbədi sənət yolunda qurban vermiş nadir sənətkarlardandır. Səttar Bəhlulzadə kimi ustada ölüm yoxdur! O, bütün dövrlərin oğludur. Bu ad Azərbaycan xalqının mədəniyyət tarixindən silinməyəcəkdir.

**Mikayıl Abdullayev,**
***Xalq rəssamı***

O rənglər, o cizgilər mənimlə bir dildə, Səttar dilində danışır. O rənglərə, o boyalara, o xallara mən Səttar aləmində, Səttar dünyasında rast gəlirəm. Bir ölüm olmasın, yüz ölüm olsun, əsl sənətkara ölüm yoxdur, zaval yoxdur...

Mən, hər dəfə Səttar haqqında fikirləşəndə gözlərim önündə yarpaqları tökülməkdə olan, budaqları uzun barmaqlara oxşayan tənha əncir

ağacı canlanardı. Sadə, bəzək-düzəksiz, gözü-könlü oxşamağa elə bir görkəmi olmayan bu əncir ağacının bəhrəsi bir xalqı özünə qonaq eylədi.

**Rəsul Rza,**
***Xalq şairi***

Səttar Bəhlulzadə kimi nadir sənət bahadırı yetirmiş Azərbaycan xalqının və Azərbaycan təbiətinin qarşısında təzim edirəm.

**Xəlil Rza,**
***Xalq şairi***

Bəhlulzadənin əsərlərinə baxarkən ana yurdumuzun gözəlliyinə və əzəmətinə bir daha vuruldum.

**Bəxtiyar Vahabzadə,**
***Xalq şairi***

...İncəsənət muzeyində Bəhlulzadənin fərdi yaradıcılıq sərgisi hazırlanırdı. Biz də orada idik. Sərgidəki mənzərələr içində təkcə Səttarın portreti əskik idi. Ətrafdakılar təkid etdilər ki, onun

portretini çəkim, mən də razılıq verdim. Əvvəl Səttarı təbiət qoynunda çəkmək istədim. Amma nə isə bu məni təmin etmədi. Onu emalatxanada dəzgah qarşısında, yeni əsərini seyr edən zaman çəkməyi qərara aldım. Bu hal rəssamın daxili aləmini açmaq üçün gözəl imkan yaradırdı. İş əvvəldən rəvan getdi. Az zaman içində portret hazır oldu və sərgidə asıldı.

**Tağı Tağıyev**,
***Xalq rəssamı***

Bir insan kimi, bir sənətkar kimi Bəhlulzadədə insanı cəlb edən nədir?

Xasiyyətindəki mehribanlıq, sənətində yüksək istedad və doğmalıq.

Mən burada "doğmalıq" sözünü təsadüfən işlətmədim. Çünki Səttarın hər bir tablosu elə bil ki, doğma Azərbaycanın canlı və təkrarsız bir guşəsidir...

**Ömər Eldarov,**
***Xalq rəssamı***

Səttarın xasiyyəti bizim doğma Azərbaycanın təbiəti kimi lirik, yumşaq və şairanədir. Onun insani

təbiətilə yaradıcılığı bir-birinə çox bənzəyir, biri digərin tamamlayır.

Səttarı sənətimizə baharı gətirən müjdəçi qaranquşa bənzədirəm. O, təkcə müjdəçi deyil, bahar gözəlliklərini öz kövrək qəlbində yerləşdirib, Vətən torpağını vəsf eyləyib.

...İllər ötəcək, Bəhlulzadənin həm koloritli siması, həm də yüksək sənəti hələ neçə-neçə rəssamı ilhama gətirəcək. Çünki Səttarın böyük sənəti də sanki doğma Azərbaycanın özüdür.

**Toğrul Nərimanbəyov,**
***Xalq rəssamı***

...Səttar xoş xasiyyətli, ümidverici istedadı, ehtiraslı mübahisələri və şirin yumoruyla hamımızın rəğbətini qazanmışdır. Hələ institutun orta kurslarında oxuyarkən mən onun portretini çəkmək istəyirdim. İndi özüm də bilmirəm ki, bu istəyimi nə üçün o vaxtlar icra edə bilmədim. Doğrusunu deyim ki, mən buna həm təəssüflənirəm, həm də yox. Təəssüflənməyimə səbəb odur ki, indi 60 yaşlı Səttar axı, o zaman çox gənc idi. Və bu portret o vaxtlar yaradılsaydı, Səttarın gənclik çağının müəyyən bir anı əbədiyyətə çevriləcəkdi...

Lakin məni sevindirən cəhət odur ki, bu portret sonradan çəkilsə də o elə bil ki, həmin illərin yadigarıdır. Çünki sevimli Səttarda mən deyərdim ki, əbədi gəncliyin eleksiri vardır.

Yenə də əzəlki kimi coşğun ehtiras, səmimi qəlb, bir də yüksək istedad.

**Vladimir Neçitaylo,**
***RSFSR-in Xalq rəssamı***

...Mən Bəhlulzadənin portret-büstünü yaratmazdan əvvəl onu çox ətraflı öyrənməyə başladım. Müxtəlif vəziyyətlərdə: iş prosesində, istirahət zamanı, dostlarıyla söhbətində və s.

Ancaq doğrusunu deyim ki, büstün birinci variantı məni o qədər də qane etmədi. Deyəsən həm onun simasında, həm də sənətində xoşladığım əsas məziyyəti tuta bilməmişdim. Nəhayət qərara aldım ki, Səttarın portretini Azərbaycan mənzərələrindən çıxış edərək yaradım. Bu qərarın üstündə də dayandım.

Çalışdım ki, büstdə Səttarın xarakterinə xas olan romantizm, çılgınlıq əbədi gənclik keyfiyyətlərini açım…

Deyəsən istəyimə nail olmuşam. Çünki Bəhlulzadə əsəri çox bəyəndi və dedi ki, bu büstü mən Əmircandakı evimin həyətinə qoymaq istərdim və hər səhər onunla üz-üzə gələndə deyərdim. Salam, Səttar!

**Elmira Hüseynova,**
***Xalq rəssamı***

Səttar Bəhlulzadənin çox qəmli gözləri vardı. Güman ki, belə qəmli gözlərə həyatda rast gəlməmişəm. Amma bu qəmli gözlərlə dünyaya baxırdı, dünyanı bol günəşli, işıqlı, əlvan, bahar səsləri ilə, quşların cəh-cəhi ilə dolu görürdü. Çox tənha insan olan Səttar həyatı bayram kimi qavrayırdı.

**Anar,**
***Xalq yazıçısı***

Gözəllik və səadət vurğunu olan Səttar Bəhlulzadə öz əsrinin övladına əbədi bir bahar bəxş etmişdir. Belə bir sənətkar xoşbəxtdir, bəxtiyardır!

**Səlim Ədnan,**
***Ərəb jurnalist və yazıçısı***

Azərbaycanın Xalq rəssamı Səttar Bəhlulzadə çoxmillətli sovet incəsənətinin ən layiqli, bənzərsiz nümayəndələrindən biridir. Bu şairanə lövhələrdə biz Azərbaycan torpağının nəfəsini, ətrini duyuruq. Hər bir tablo incə şeir parçasını xatırladır.

**Qriqoriy Anisimov**,
***sənətşünas***

# SƏTTAR BƏHLULZADƏ HAQQINDA KİTABLAR

## 1958

**1. Əfəndiyev R.** Səttar Bəhlulzadə.- B.: Azərnəşr, 1958.- 16 s., şək.

**2. Tərlanov M.** Sovet Azərbaycanının təsviri incəsənəti /M.Tərlanov, R.Əfəndiyev.- B.: Siyasi və elmi bilikləri yayan cəmiyyət, 1958.- 52 s.

Kitabda rəssamın yaradıcılığından bəhs edilir [S.18-21].

## 1959

**3. Həbibov N.** Azərbaycan SSR-in təsviri incəsənəti.- B.: Azərnəşr, 1959.- 20 s.

## 1961

**4. Həbibov N.** Rəssamlıqdan söhbət.- B.: Azərnəşr, 1961.- 110 s. şək.

Kitabın "Azərbaycan rəssamlığı" bölməsində Əməkdar incəsənət xadimi S.Bəhlulzadənin yaradıcılığından bəhs edilir [S.197].

## 1962

**5. Əfəndiyev R.** Təsviri incəsənət /R.Əfəndiyev, M.Nəcəfov.- B.: Azərnəşr, 1962.- 239 s.

Kitabda rəssam haqqında qısa məlumat verilib [S.236-238].

## 1963

**6. Litvin M.** Azərbaycan Xalq rəssamı Səttar Bəhlulzadə.- B.: Azərnəşr, 1963.- 8 s., şək.

## 1964

**7. Kərimova R.** Azərbaycan covet portret boyakarlığı: Azərbaycan covet rəssamlığında portret janrının inkişafı (1946-1960-cı illər).- B.: Azərb.EA, 1964.- 178 s.

Kitabda rəssam T.Tağıyev tərəfindən çəkilmiş "Səttar Bəhlulzadənin portreti" əsərindən danışılır.

## 1966

**8. Həbibov N.** Azərbaycan sovet rəssamlığı.- B.: Azər.Dövlət nəşriyyatı, 1966.- 177 s., şək.

Kitabın "Mənzərə rəssamlığı" bölməsində S.Bəhlulzadənin yaradıcılığından geniş bəhs edilir [S.134-137].

## 1971

**9. Nəcəfov M.** Azərbaycan SSR-nin incəsənəti.- M.: Nauka, 1971.- 30 s., şək. (Azərb., rus, və ing. dillərində)

Kitabda S.Bəhlulzadənin yaradıcılığından bəhs edilir, "Kəpəzin göz yaşları" əsəri və rəssam H.Ələsgərovun çəkdiyi S.Bəhlulzadənin portreti verilmişdir.

## 1974

**10. Hacıyev P.** Rəssam, həyat, gözəllik.- B., 1974.- 158 s.

Kitabın “Azərbaycan rəssamlığı” bölməsində Əməkdar incəsənət xadimi S.Bəhlulzadənin yaradıcılığından bəhs edilir [S.19].

**1977**

**11. Azərbaycan incəsənəti**.- B.: Maarif, 1977.- 211 s.

Kitabın “Rəssamlıq” bölməsində Səttar Bəhlulzadənin yaradıcılığından bəhs olunur [S.193].

**12. Nəcəfov M.** Rəssam və zaman.- B.: Gənclik, 1977.- 174 s.

Kitabın “Ştrixlər: Səttar Bəhlulzadə haqqında etüdlər” bölməsi rəssama həsr olunub [S.85-90].

**1978**

**13. Bəhlulzadə Səttar Bəhlul** oğlu //Azərbaycan Sovet Ensiklopediyası. 10 cilddə.- B.: Azərbaycan Ensiklopediyası, 1978.- C.2.- S.152-153.

**1979**

**14. Hacıyev P.** Zamanın boyaları: Böyük Xalq

rəssamı Səttar Bəhlulzadənin xatirəsinə.- B.: Gənclik, 1979.- S.3-20.

**1988**

**15. Rəhimli İ.** Sənət yolu, sənətkar ömrü.- B.: Yazıçı, 1988.- 224 s.

Kitabın "Sənətkar ömründən notlar" bölməsi Səttar Bəhlulzadə yaradıcılığından bəhs edən esselərdən ibarətdir. Kitabın içindəkilərdən: Səttar dünyası; Şahdağda göz-gözə; Leysan; Ana dağlar - anam dağlar; Nalə çəkdi qönçələr; Güllərin rəqsi; Düyməli dodaqlar; Xəznəli qayada şimşək çaxdı; Heykəlləçən ömürlər; Kəpəzin göz yaşı; Əlvan yuxu.

**1990**

**16. Rəhimli İ.** Səttar dünyası.- B.: İşıq, 1990.- 170 s., şək. (Azərb. və rus dillərində).

**1992**

**17. Kərimov K.** Azərbaycan incəsənəti: Mo-

noqrafiya /K.Kərimov, G.Əfəndiyev.- B.: İşıq, 1992.- 344 s., şək.

Kitabın "Rəngkarlıq" bölməsində rəssamın yaradıcılığından bəhs olunur [S.322].

**1993**

**18. Tahirov S.** Yollar, mənzərələr: Səttar Bəhlulzadə haqqında xatirələr.- B.: İşıq, 1993.- 120 s.

Kitabın içindəkilər: Səttarla yol yoldaşı; Dirçəliş yollarında; Qubar; Bu dünyada şirin şey bir anadır, bir vətən; Tağana açılan güllələr; Şabran; Od tutub yandı üfüq; Nə gözəl yaraşır Muğana ceyran; Gülyan; Fəza da sonsuzdur, zəka da; Bülbüllər hürküşüb, gül inciməsin; Yaz; Sənət dostları, Gülnar; Göy kişnər, bulud ağlar.

**1994**

**19. Nəcəfov M.** Səttar Bəhlulzadə.- B.: İşıq, 1994.- 15 s., şək.

Kitabça respublikanın Xalq rəssamı, unudulmaz sənətkarın anadan olmasının 85 illiyi münasibətilə çap edilmişdir.

## 2003

**20. Fərzəliyev G.** Natürmort janrı haqqında /G.Fərzəliyev.- B.: AzEurotel, 2003.- 118 s.

Kitabda S.Bəhlulzadə yaradıcılığına qısa da olsa toxunulmuş, əsərlərindən nümunələr verilmişdir [S.28; 76-77].

## 2004

**21. Kazımov A.** Mənzərədə impressionizm üslubu.- B.: Elm, 2004.- 34 s.

Kitabda Xalq rəssamı Səttar Bəhlulzadə yaradıcılığından qısa da olsa bəhs edilir.

## 2006

**22. Əliyev Z.** Naməlum Səttar: (Kitaba ön söz).- B.: Buta nəşriyyatı, 2006.- 79 s.

## 2007

**23. Abdulla A.** Qapıları bir-bir döydüm: [Rəssam Səttar Bəhlulzadə haqqında].- B.: Nurlan, 2007.- 93 s.

Kitabın içindəkilər: Yazardan; Səttar bayramı; Qapıları bir-bir döydüm; Biri sağ çiynimdən; Uzaqlaşdıqca yaxınlaşan; Qara yazıda axar sular boyunca; Səttar Bəhlulzadə sənət haqqında; Sənətçilər Səttar Bəhlulzadə haqqında; Səttar Bəhlulzadə öz əsərlərini bağışladığı adamların siyahısı.

**24. Azərbaycan Milli** Ensiklopediyası: Azərbaycan.- B.: AME Elmi mərkəzi, 2007.- 771 s.

Ensiklopediyanın "Təsviri və dekorativ tətbiqi sənətlər" bölməsində rəssamın yaradıcılığından bəhs edilmiş, əsərlərindən nümunələr verilmişdir.

## 2009

**25. Boyalarda yaşayan ömür**: Səttar Bəhlulzadə - 100 /Tərt. ed. B.Ələsgərov.- B.: [M.F.Axundov adına Milli Kitabxana], 2009.- 27 s.

# SƏTTAR BƏHLULZADƏNİN YAZDIĞI BİR NEÇƏ MƏQALƏ VƏ ONUN HAQQINDA DÖVRİ MƏTBUAT MATERİALLARI

## 1955

**26. Bəhlulzadə S.** Gözəl tablolar aradıq: [Oktyabr sosialist inqilabının 38-ci ildönümü münasibətilə] //Ədəbiyyat və incəsənət.- 1955.- 6 noyabr.

---

**27. Hacıyev P.** Realist sənətin gücü: [Mənzərəçi rəssam Səttar Bəhlulzadə haqqında] //Azərbaycan gəncləri.- 1955.- 30 oktyabr.

**28. Nəcəfov M.** Gözəl mənzərələr ustası: [Mənzərəçi-rəssam S.Bəhlulzadə haqqında] //Ədəbiyyat və incəsənət.- 1955.- 23 oktyabr.

**29. Mənzərə ustası:** [Səttar Bəhlulzadə haqqında] //Pioner.- 1955.- № 11.- S.17.

## 1956

**30. Səttar Bəhlulzadənin əsərlərinin** müzakirəsi //Ədəbiyyat və insəsənət.- 1956.- 1 aprel.

**31. Tağıev T.** Rəssam Səttar Bəhlulzadənin yaradıcılıq sərgısi //Kommunist.- 1956.- 11 fevral.

**1959**

